*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 20 fevral 2019-cu il | № 14 (2331) | Qiyməti 30 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır

*Sabitlik, dinamik iqtisadi inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. XXI əsrin ikinci onilliyinin əvvəlindən Azərbaycan Ordusu öz inkişafının ən uğurlu dövrünü yaşamaqdadır. Çünki Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü ordusuna çevirməklə, dünya miqyasında öncül sıralardan birinə çıxarıb.*



Bu gün Azərbaycanda ordu quruculuğu prosesi özündə silahlı qüvvələrin daha da modernləşdirilməsini ehtiva etdirməklə uğurla həyata keçirilir. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Hərbi hissələrimiz hazırda dövlət rəhbərliyinin böyük qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşayır. Müasir dövrdə ölkəmizdə çox mühüm sahələr olan hərbi təhsil və hərbi səhiyyə də davamlı şəkildə inkişaf etməkdədir.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsi baxımından tarixi əhəmiyyətli işlər görülüb. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, onların əmək haqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Onun nəticəsidir ki, Ali Baş Komandanımızın qeyd etdiyi kimi “Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.”

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir. Ali Baş Komandanın orduya diqqət və qayğısı ümumilikdə Azərbaycan dövlətinə olan sədaqətin bariz nümunəsidir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin fevralın 13-də Beyləqan rayonuna səfəri, rayonun ərazisində yeni inşa edilmiş "N" hərbi hissəsində yaradılan şəraitlə tanış olması, orada yaşayan əhalinin, xüsusən də əsgər və zabitlərin əhval-ruhiyyəsini daha da yüksəltdi. Dövlət başçısının hərbi hissə ilə tanışlığı həm də göstərdi ki, hərbçilərimizin döyüş əzmi çox güclüdür. Əsgər və zabit heyəti Azərbaycan dövlətinin və şəxsən Prezidentin güclü dəstəyini, diqqətini, qayğısını bir daha hiss etdi. Dövlət başçısı bu dəfə də öz liderlik, prinsipiallıq və mərdlik nümunəsini bütün cəmiyyətə təqdim etdi.

Prezident İlham Əliyevin Beyləqan rayonuna səfəri bir daha göstərdi ki, dövlət başçısı bütün məsələləri şəxsi nəzarətində saxlayır, bilavasitə yerlərə səfər edərək vəziyyəti qiymətləndirir, lazımi qərarlar qəbul edir və tapşırıqlar verir.

Bu səfər bir daha Prezident İlham Əliyevin şəxsi cəsarəti, mərdliyi timsalında xalqımızın və ordumuzun qəhrəmanlığının, şücaətinin, vətənpərvərliyinin təcəssümü idi. Bu səfərin əsas məqsədi Prezidentin əsgərlər və vətəndaşlarla görüşü idi. Eyni zamanda dövlət başçısı onu da göstərdi ki, Ali Baş Komandan kimi əsgərlərlə, Prezident kimi sadə vətəndaşlarla birlikdədir.

Beyləqan rayonunda sadə vətəndaşlarla və hərbi qulluqçularla görüş onu deməyə əsas verir ki, inkişaf və tərəqqisinin yeni mərhələsinə qədəm qoyan nizami ordumuz regionda ən güclü orduya və xalqın güvənc yerinə çevrilib. Ümummilli Liderimizin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi ordumuzun qüdrətini gündən-günə artırır. Azərbaycan qüdrətli ordunun hesabına itirilmiş torpaqları ilə yanaşı, tarixi torpaqlarını da geri qaytaracaq. Zəngin hərbi tarixə malik Azərbaycan xalqı öz ordusunun əzm və qüdrətinə arxalanaraq dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq.

Prezidentin Azərbaycan Ordusuna verdiyi yüksək dəyər hərbçilərimizi, bütövlükdə isə cəmiyyətimizi daha da ruhlandırır, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan torpaqlarının tezliklə işğaldan azad ediləcəyinə əminlik yaradır.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə nazirinin Birləşmiş Ərəb Əmirliklərinə səfəri

*Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Müdafiə Məsələləri üzrə Dövlət naziri Məhəmməd Əhməd Əlbavardi Əl Flasi ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

* * *

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Müdafiə naziri Şeyx Məhəmməd bin Rəşid Əl Məktumun dəvəti ilə Əbu-Dabi şəhərində səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov burada keçirilən "IDEX-2019" Beynəlxalq Müdafiə Sərgisinin açılış mərasimində iştirak edib.

Mərasimdən sonra general-polkovnik Zakir Həsənov sərgi ilə tanış olub və burada qabaqcıl silah istehsalçılarının nümayiş etdirdiyi ən müasir döyüş texnikası və hərbi vasitələrin nümunələrinə baxış keçirib.

* * *

Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov "IDEX-2019" Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilən Türkiyə Respublikasının "Makina və Kimya Sənayesi Qurumu", "ROKETSAN", "ASELSAN" və "Otokar" şirkətlərinin istehsalı olan silah, texnika və hərbi təyinatlı vasitələrə baxış keçirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şirkətlərin rəhbərləri ilə görüşərək iki ölkə arasında hərbi texniki sahədə mövcud əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Müdafiə naziri hərbi sahədə birgə layihələrin hər iki ölkənin ordularının gücləndirilməsinə xidmət edəcəyinə əmin olduğunu bildirib.






* * *

Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərinə səfəri çərçivəsində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Müdafiə naziri general-leytenant Andrey Ravkovla görüşüb.

Görüşdə tərəflər hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini qeyd edib, eləcə də maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

* * *

"IDEX-2019" Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Azərbaycan nümayəndə heyəti Belarus Respublikasının hərbi sənayesinin istehsal etdiyi döyüş texnikaları və hərbi təyinatlı digər vasitələrlə tanış olub, ordumuzun arsenalını gücləndirə biləcək silah və texnika ilə yaxından maraqlanıb.

Sərgi zamanı Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinin sədri cənab Roman Qolovçenko ilə görüşüb.

Tərəflər hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf perspektivlərini, müasir hərbi texnologiyaların tətbiqi imkanlarını və qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**18 fevral 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber və Ayqeovit kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Məzəm və Cəfərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Mərzili, Füzuli rayonunun Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**19 fevral 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Naxçıvan Qarnizonu qoşunlarında komanda-qərargah təlimi başlayıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvan Qarnizonu qoşunlarında 2019-cu tədris ilinin ilk komanda-qərargah təlimi başlayıb. "Həyəcan" siqnalı ilə cəmləşmə rayonlarına çıxarılan qoşunların idarəetmə sistemləri vasitəsilə idarə olunması praktiki həyata keçirilir. Üç pilləli komanda-qərargah təlimi iki mərhələdə icra edilir.

Təlim fevralın 23-dək davam edəcək.

# Müdafiə Sənayesi Nazirliyinin nümayəndə heyəti "IDEX-2019" Beynəlxalq Müdafiə Sərgisində iştirak edir

*Müdafiə Sənayesi Nazirliyinin (MSN) nümayəndə heyəti fevralın 17-dən Əbu-Dabidə açılan "IDEX-2019" 14-cü Beynəlxalq Müdafiə Sərgisi və konfransında iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) səfərdədir.*

MSN-dən AZƏRTAC-a bildiriblər ki, tədbirə qatılan nümayəndə heyəti sərgi çərçivəsində Türkiyənin "MKEK", Rusiyanın "Rosoboronexport", Serbiyanın "Yugoimport", Birləşmiş Ərəb Əmirliklərinin "Mobile Land Systems" və "Tawazun", Səudiyyə Ərəbistanı Krallığının "Military Industries Corporation" şirkətlərinin rəhbər və nümayəndələri ilə görüşlər keçirib. Görüşlərdə hərbi-texniki sahədə əməkdaşlığın inkişaf etdirilməsi və Azərbaycan istehsalı olan hərbi təyinatlı məmulatların ixracına dair danışıqlar aparılıb.

"IDEX" sərgisi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın himayəsi ilə bu ölkənin Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir.

Sərgi işini fevralın 21-dək davam etdirəcək.

## Daha 200 şəhid hərbi qulluqçunun 318 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul edilib

Prezident İlham Əliyevin mühüm sosial əhəmiyyət kəsb edən humanist təşəbbüsü olaraq şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təmin olunması sahəsində işlər davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlikdə fəaliyyət göstərən Komissiyanın növbəti iclasında daha 200 şəhid hərbi qulluqçunun 318 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul edilib. Yaxın günlərdə müvafiq vəsait onların bank hesablarına köçürüləcək və bu barədə onların telefon nömrələrinə sms-bildiriş göndəriləcək.

Xatırladaq ki, dövlətimizin başçısının 2019-cu il 28 yanvar tarixli Fərmanı ilə birdəfəlik ödəmə verilən şəhid vərəsələrinin əhatə dairəsinə 1997-ci il avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 nəfərin (o cümlədən vərəsələri 11 min manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin) vərəsələri də aid edilib. Beləliklə, vərəsələrinə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhidlərin sayı 12 min 268-ə çatıb.

# Xalqın ürəyi ordusu ilə döyünür...

Təmas xəttində yerləşən, Qarabağ müharibəsində alınmaz qalaya çevrilən bölgələrdən birindəyik. Bu rayonun camaatı, böyükdən tutmuş kiçiyə kimi hamı hərbçilərimizə xüsusi hörmət bəsləyir. Gecə-gündüz səngərdə dayanaraq, düşməni nəzarətdə saxlayan əsgərin qədrini bilməyi, onun gördüyü işin məsuliyyətini dərk etməyi bütün əhali özünün mənəvi borcu hesab edir. "Ordun varsa, yurdun var. Torpaqlarımızı qoruyan ordumuzdur. Əsgərsiz Vətəni təsəvvür etmək mümkün deyil. Ordusuz ölkənin sərvəti qarətçilərə yem, əhalisi isə onlara qul olar", - deyir rayon camaatı. Rayon sakinləri bizimlə söhbətində bildirdilər ki, ordusu zəif olan dövlət beynəlxalq aləmdə və siyasətdə tanınmaz dərəcəyə çatır. "Məhz bu və digər vacib amilləri nəzərə alan, uzaqgörən siyasəti ilə seçilən ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev ordu quruculuğuna böyük önəm verir. Artıq Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə gücü ordusu, apardığı siyasəti və iqtisadi layihələri müdafiə etməyə qadir döyüş qabiliyyətli güc strukturları var."



Cəbhə bölgəsində yaşayan yerli əhali əsgər və zabitlərimizin döyüş bacarığına yaxşı bələddir. Döyüş mövqelərinə yaxın ərazilərdə yaşayan kənd camaatı hərbçilərimizə güvənərək əkin sahələrində, təsərrüfatlarında arxayın çalışa bilir. Əvvəlki illərlə müqayisədə bu gün həmin kəndlərdə daha çox canlanma var. İndi kəndlilər arxayınlıqla gündəlik işləri ilə məşğuldurlar. Onlar bilirlər ki, döyüş qabiliyyətli bölmələrimiz əmin-amanlığı qorumaq iqtidarındadır. Əhalinin hərbçilərə olan hörmət və ehtiramı dövlətçiliyimizə olan doğma münasibətdən və əsgərlərimizin vəzifə borclarının öhdəsindən layiqincə gəlmələrindən qaynaqlanır desək, yanılmarıq. Yeri gəlmişkən, ərazidə sakitliyin və əmin-amanlığın hökm sürməsindən danışarkən hərbçilərimiz yada düşür. Onlar Hərbi anda sadiq qalaraq gecə-gündüz Vətənin keşiyində möhkəm dayanıblar.

Baş leytenant Mustafa Qurbanov tabeliyindəki əsgərlərin peşə bacarığı, döyüş hazırlıqları barədə danışdı və bir neçəsinin adını xüsusilə vurğuladı. Zabit qeyd etdi ki, tabeliyində olan əsgərlər nümunəvi xidmətləri ilə seçilirlər. Əsgər Mircavad Əhmədli də belələrindəndir. Bir ildən artıqdır ki, əsgər M.Əhmədli ön xətdə yerləşən bölmələrimizin birində Vətənə övladlıq borcunu yerinə yetirir. Bölmələrin cavabdeh olduğu bütün ərazini yaxşı tanıyır. Xidmət etdiyi müddət ərzində təcrübəli döyüşçü kimi yetişən Mircavad çoxsaylı təlimlərdə iştirak edib. Döyüş növbəsinə çıxarkən düşmənin mövqelərini ayıq-sayıqlıqla izləyir. O, nümunəvi xidməti ilə gənc əsgərlərə örnəkdir.

Əsgər Axund Zeynalov da cəsarəti, hünəri ilə döyüşçü yoldaşından geri qalmır. Komandirləri tərəfindən nümunəvi xidmətlərinə görə təşəkkürə layiq görülən əsgərlər mövqelərində əzmlə dayanıblar. Onlar söhbət zamanı aprel döyüşlərində iştirak etmək üçün könüllü hərbi xidmətə yazılmaq və döyüşən əsgərlərimizin yanında olmaq istədiklərini bildirdilər. "O zaman hər kəs döyüşə, səngərə - hərbçilərimizin yanına, düşməni torpaqlarımızdan qovmağa can atırdı. Biz də oraya can atan gənclərin sırasında olmuşuq. Eşidirdik ki, erməni əsgərləri silahlarını atıb qaçırdılar. Azərbaycan əsgəri isə sonacan döyüşdü, şəhid oldu, lakin döyüş mövqeyini tərk etmədi. Biz torpaqlarımızın azadlığı uğrunda hər an, hər dəqiqə Ali Baş Komandanın döyüş əmrinə hazırıq".

Cəbhə bölgəsində yerləşən rayon camaatı və hərbçilərimizlə apardığımız söhbətlər bir daha təsdiq etdi ki, həqiqətən, Azərbaycan cəmiyyətində ordu ilə xalqın monolit birliyi mövcuddur. Onların birliyi ölkəmizin sarsılmaz qüvvəsi, işıqlı gələcəyidir. Bu möhtəşəm qüvvə xalqımızın səbirsizliklə gözlədiyi Zəfərə çatmağımızda mayak rolunu oynayacaq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

*Döyüş hazırlığı*

# Torpaqlarımızı azad etmək amalı ilə xidmət edirik



*Bu gün Azərbaycan Ordusunun döyüş hazırlığı, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə etmək bacarığı, peşəkarlığı və təchizatı region dövlətlərinin orduları ilə müqayisəedilməz səviyyədə yüksəkdir. Əldə edilən uğurlara maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daha da təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsində qurulması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərinə diqqətin artırılması hesabına nail olunub.*



"N" hərbi hissəsində fərdi hazırlıq dövründə şəxsi heyətin dərs prosesində izlədiklərimiz də sübut edir ki, ölkəmizdə aparılan hərbi islahatlar nəticəsində hərbi təlim, döyüş hazırlığı özünün bütün parametrləri ilə daha çox əhəmiyyət daşımaqla xüsusi diqqət mərkəzində dayanır.

"Azərbaycan əsgərinin formalaşdırılması, onun bir döyüşçü kimi yetişdirilməsinin ağırlıq mərkəzi məhz döyüş hazırlığının üzərinə düşür. Bu vəzifənin yerinə yetirilməsində Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığı həlledici rol oynayır. Təcrübələr onu göstərir ki, döyüş səhnəsində hazırlıqlı hərbi qulluqçu daha çox əhəmiyyət daşıyır. Əsgərlərin istər fiziki, istərsə də mənəvi cəhətdən inkişaf etməsində, hərbi qulluqçu kimi Vətənin müdafiəsinə hazırlanmasında təlimlər, keçirilən məşqlər, döyüş hazırlığı dərsləri xüsusi rol oynayır", - deyə mayor Kamran Seyidov bildirdi.

Zabit Kamran Seyidovla döyüş hazırlığı məşğələsi ilə məşğul olan şəxsi heyətə yaxınlaşırıq. Artilleriyaçılar dərs cədvəlinə uyğun olaraq müxtəlif döyüş tapşırıqlarını məşq edirdilər.

Baş leytenant Asif Hüseynov qeyd etdi ki, digər bölmələrimizdə olduğu kimi, topçularımız da fərdi hazırlıq dövründə dərs prosesi ilə məşğul olurlar. "Hədəflərin aşkar olunması, nişangah obyekti ilə hədəf arasındakı məsafənin ölçülməsi, nəzərdə tutulan obyektin müvafiq zaman çərçivəsində məhv edilməsi dərsə cəlb olunmuş əsgərlərimizin peşə vərdişlərinin təkmilləşdirilməsində mühüm rol oynayır. Keçirilən dərslərin sonunda qiymətləndirmənin aparılması şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verir".

"Dərs zamanı əsgərlərin əldə etdikləri biliklər mühüm əhəmiyyət kəsb edir. Əsgərlər bu prosesdə həm öyrənir, həm də müəyyən təcrübələrə yiyələnirlər. Döyüş hazırlığı dərslərində əsgərlər dəqiqlik, çeviklik, intizamlılıq, dözümlülük kimi yüksək dəyərləri əldə edə bilirlər", - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elşən Yusifov bizimlə söhbətində bildirdi.

Əsgər İlqar Vəliyev isə bildirdi ki, hərbi xidmət zamanı keçirilən dərslər və təlimlər onların həyatında böyük əhəmiyyətə malikdir. "Dərs prosesində və təlimlərdə necə iştirak ediriksə, döyüşdə də əldə etdiyimiz təcrübədən yararlanacağıq. Ona görə də zabitlərimizin qoyduğu tapşırıqlar getdikcə daha da mürəkkəbləşir, sadədən mürəkkəbə doğru dəyişir. Onların sayəsində üzərimizə düşən məsuliyyəti hiss edir və döyüş haqqında hər birimizdə aydın təsəvvür formalaşır".

"Vətənin keşiyində dayanmaq şərəfli işdir. Xidmətdə olduğum müddətdə çoxlu hərbi biliklərə yiyələnməyə çalışıram. Komandirlərimiz bizimlə mütəmadi olaraq müxtəlif mövzularda söhbətlər aparır, keçirilən dərslərdə döyüş hazırlığının sirlərini öyrədirlər. Doğma torpağımız daim vətənpərvər övladlar böyüdüb. Vətən yolunda canından keçən mərd oğullarımız da çoxdur. Onlar öz qəhrəmanlıqları ilə adlarını əbədi olaraq şanlı tariximizə yazdırıblar. Biz də həmin igidlərdən nümunə götürməliyik. Mənfur düşmənə hər an layiqli cavab verməyə hazırıq", - deyə əsgər Sahib Əliquliyev qeyd etdi.

Əsgərlər Əli Zeynalov, Fərid Məmmədov, Fərid Abdullayev bildirdilər ki, əsas məqsədləri işğalda olan torpaqlarımızı azad etməkdir.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# “Mənəvi-psixoloji hazırlığımız yüksəkdir”



Azərbaycanın müstəqilliyinin bərpasından sonra Ümummilli Liderimizin rəhbərliyi altında ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Bu dövrdə qəbul edilən qərarlar sayəsində respublikamızın etibarlı müdafiəsinə, savadlı hərbi kadrların yetişməsinə zəmin yarandı. Ulu Öndər ordumuzun inkişafı məsələsini daim diqqət mərkəzində saxlayırdı. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyevin də siyasi kursunun əsas istiqaməti ordu quruculuğu prosesini sürətlə təkmilləşdirmək, Silahlı Qüvvələri modernləşdirməkdir. Günbəgün müasir standartlara cavab verən hərbi hissələrin inşa edilməsi, yeni silah-sursatlar, texnikaların alınması bunun bariz nümunəsdir. Bu gün Azərbaycan Ordusunun qarşısında duran əsas vəzifələrdən biri də şəxsi heyətin döyüş ruhunun yüksəldilməsi məsələsidir. Bunun üçün düşmənlə təmas xəttində xidmət edənlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, vətənpərvərlik ruhunun artırılması istiqamətində də tədbirlərin keçirilməsinə üstünlük verilir. Belə tədbirlər şəxsi heyətə ruh yüksəkliyi, Vətənimizə, xalqımıza sədaqət hissləri aşılayır.

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində Vətəninə bağlı hərbçilərimizlə fikir mübadiləsi aparmaq ruha sığal çəkir, insana mənəvi rahatlıq gətirir. Belə mənəvi rahatlığı şəxsi heyətlə keçirilən ictimai-siyasi hazırlıq dərsindən sonra tapırıq. Leytenant İlqar Cəlilovla söhbətimiz zamanı öyrənirəm ki, o, dayısının simasında bütün şəhidlərimizin qisasını almaq arzusu ilə yaşayır. Dayısı Azərbaycanın Milli Qəhrəmanı Kərim Kərimovun qəhrəmanlığından danışanda, gənc zabitin gözlərində Vətəninə sevgi, düşmənə nifrəti aydın sezilirdi. "Uşaq vaxtlarımdan ətrafımda olanlar dayımın şücaətindən, Tümendə Komandir məktəbində təhsil almasına baxmayaraq Vətənin dar günündə kursant yoldaşları ilə birlikdə geriyə dönməsindən, onlarla erməni quldurunu məhv etməsindən danışardılar. Onun qəhrəmanlığından ruhlanaraq qərar verdim ki, zabit kimi düşmənlə təmas xəttində xidmət edəcəm. Bu gün öz məqsədimə çatdığıma görə çox sevincliyəm. Çalışıram ki, əsgərlərimi dayım kimi qəhrəman oğullarımızın davamçıları olaraq yetişdirim. Təhsil müddətimdə mənimsədiklərimi onlarla bölüşürəm. Arzumdur ki, Qarabağımızı işğaldan azad edəndən sonra Şuşada bizlərdən "Qalib ordunun cəsur əsgər və zabitləri" adlı məqalə hazırlayasınız".

Vətənini sevən, Vətənə bağlı zabitimizlə söhbətimiz bir daha sübut etdi ki, vətənpərvərlik ilk olaraq ailədən gəlir. Bu ruhda tərbiyə olunan oğullarımızdan biri də əsgər Rauf Abdullayevdir. Rauf da vətənpərvərlikdən, xalqımızın qəhrəmanlarından danışdı və əmisinin 20 Yanvar hadisələrində Vətənimizin müstəqilliyi uğrunda şəhid olduğunu bildirdi. "Atam həmişə əmimin xalqımızın firavan yaşaması, bizlərin müstəqil, azad böyüməyimiz üçün canını fəda etdiyini deyərdi. Həmişə vurğulayardı ki, üzərində böyüyüb boya-başa çatdığımız torpaqlar bizim üçün səcdəgahdır, toxunulmazdır, müqəddəsdir. Əsl vətəndaş odur ki, öz Vətəninin azadlıq və istiqlaliyyəti uğrunda hər an canını, qanını verməyə hazırdır. Bunun üçün xalqımız şəhidlərimizi hər an şərəflə yad edir. Xidmətə başladığım gündən əmimin qisminda bütün şəhidlərimizin qisasını almaq, bayrağımızı artıq işğaldan azad olunmuş torpaqlarımızda dalğalandırmaq istəyirəm".

- 27 il xalqımız Qarabağ həsrəti ilə yaşadı. Arzumdur ki, bu il həsrətin sonu olsun. Xidmətdə olduğum müddətdə torpaqlarımızı işğaldan azad edənlərin sıralarında olmaq, evimə qalib ordunun əsgəri olaraq dönmək istəyirəm. Hər birimiz bir amala xidmət etdiyimiz üçün komandirlərimizin öyrətdiklərini dərindən mənimsəməliyik. Daima hərbin sirlərini, hərbi vərdişlərimizi, nəzəri, praktiki biliklərimizi təkmilləşdirməliyik. Şəhidlərin müqəddəs qanının yerdə qalmaması, Vətənə layiqli övlad olmaq üçün bütün qüvvə və bacarığımızı əsirgəməməliyik. Yalnız bu halda Böyük Qələbəni yaxınlaşdıra, şəhidlərimizin ölməz ruhları qarşısındakı mənəvi borcumuzu yerinə yetirmiş olarıq, - bu sözləri əsgər Elmar Alıyev dedi.

Əsgərlər Rəşad Əliyev, Fərdi Vəliyev, Rasif Məhərrəmov, Elmar Həsənov və digərləri ilə söhbətimizdən bir daha əmin oldum ki, ordu sıralarında Mübariz, Fərid, Samid kimi oğullarımızın davamçıları var. Cəsur əsgərlərimiz hər an Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə işğal altında olan torpaqlarımızı düşməndən azad etməyə hazır olduqlarını, bunun üçün əllərindən gələni əsirgəməyəcəklərini bildirdilər.

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

# Beynəlxalq “Qış təlimi-2019” davam edir



*Türkiyə Respublikasının Qars şəhərində keçirilən beynəlxalq "Qış təlimi-2019"da hərbi qulluqçularımızın iştirakı davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, təlimin ssenarisinə əsasən qarlı və şaxtalı havada təyyarə, eləcə də helikopterlərdən endirilən taktiki hava desantı qrupları ən çətin tapşırıqları praktiki yerinə yetirirlər.

Təlimdə iştirak edən digər ölkələrin bölmələri ilə qarşılıqlı əlaqədə döyüş atışlarını icra edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları çoxmillətli qış təlimində ölkəmizi layiqincə təmsil edirlər.



*Gənc zabitlərimiz*

# Təcrübəyə önəm verən istehkamçı zabit

Azərbaycan Ordusunun maddi-texniki təminatı gücləndikcə onun zabit korpusunun da peşəkarlığı gündən-günə artmaqda davam edir. Bu gün ordumuzun silahlanmasına daxil olan hər bir texnika, silah-sursat, müxtəlif qoşun xidmətinə aid döyüş avadanlıqları və qurğuları peşəkar hərbçilərimiz tərəfindən yüksək səviyyədə idarə olunur. Onlar peşəkarlıqlarını, döyüş hazırlıqlarını orduda keçirilən irimiqyaslı təlimlərdə artırmaqla, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə qələbəyə zəminlik yaradırlar. Eyni zamanda ordumuzda yüksək ixtisaslı peşəkar zabitlərin sayının günbəgün artması kadr potensialının daha da gücləndirilməsi istiqamətində atılmış ciddi addımlardır. Bu yönümdə gənc zabitlərin ürəkaçan xidmətləri təqdirəlayiqdir.

Cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində ezamiyyətdə olarkən gənc zabit Yusif Alquliyev haqqında qeydlərimi götürdüm. Vətənə sədaqət andı içərək əsl Azərbaycan oğluna xas qürurla dövlətinə və xalqına xidmət edəcəyinə söz verən, torpaqlarımızın müdafiəsində dayanmağı özünə həyat amalı seçən zabitimiz bu şərəfli peşənin məsuliyyətini dərindən dərk edir və döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsində yüksək bacarıq nümayiş etdirir. Nümunəvi xidmətiylə hərbi hissə komandanlığının, ümumilikdə bütün şəxsi heyətin rəğbətini qazanıb. Keçirilən təlim və məşğələlərdə peşə təcrübəsini daim artırır.

Leytenant Yusif Alquliyev Heydər Əliyev adına Hərbi Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Burada mühəndis-istehkam ixtisasına yiyələnir.



Təhsil aldığı illərdə ixtisasının özəl sirlərini dərindən mənimsəyir. Yusifin hərbçi olmaq, Vətənin müdafiəsində dayanmaq arzuları gerçəkləşir. O, Azərbaycan Ordusunun gənc zabiti kimi ön xətt bölmələrimizdən birində xidmətə başlayır. Seçdiyi ixtisasın özəllikləri ondan ərazinin relyefini dərindən öyrənməsini tələb edirdi. Xidmətə başladığı ilk vaxtlarda döyüş bölgəsində mühəndis-istehkam işlərinin aparılması, minalardan təmizlənməsi və ərazilərin minalanması üzrə praktiki məşğələlərdə və təlim çalışmalarında fəal iştirakı onun peşəkarlığını günbəgün artırırdı.

Biz leytenant Y.Alquliyevlə görüşəndə o tabeliyində olan şəxsi heyətə mühəndis-istehkam işlərinin aparılması - ərazinin minalanması istiqamətində növbəti çöl təlimlərini keçirdi. Bugünkü məşğələnin hava şəraitinə tam uyğun olduğunu qeyd edən istehkamçı zabit bildirdi ki, təlim və məşğələlərdə yeni-yeni təcrübələr qazanırıq. Ona görə də praktiki məşğələlərə böyük önəm veririk. "Gələcəkdə peşəkarlığımızın daha da artırılmasında bu təlimlər əhəmiyyətlidir. Məlumdur ki, təlimlər, məşğələlər, dərslər döyüş planına əsasən keçirilir. Bizim əsas vəzifəmiz döyüş və mənəvi-psixoloji hazırlığımızı artırıb düşmən işğalında olan torpaqlarımızı azad etməkdir. Ərazi bütövlüyümüzü, sərhədlərimizi bərpa etməkdir. Fikrimcə, bu gün hər bir hərbi qulluqçunun ən böyük arzusu yaşından, tutduğu vəzifəsindən asılı olmayaraq Vətən torpaqlarını yağı tapdağından xilas etməkdir. Bu yoldan bizi heç bir qüvvə çəkindirə bilməz."

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu",
foto
çavuş
Rəşad ƏMRAHOVUNDUR**




# “Gənc Əsgər” layihəsi start götürdü

*"Legion" Hərbi Vətənpərvərlik klubu və Sabunçu Gənclər Evinin birgə təşkilatçılığı ilə "Gənc Əsgər" hərbi hazırlıq layihəsinin təqdimat mərasimi keçirildi.*

Tədbirdə millət vəkili Fazil Mustafa, "Legion" Hərbi Vətənpərvərlik Klubunun rəhbəri Abuzər Əbilov, Türk İslam Araşdırmaları Mərkəzinin sədri Telman Nüsrətoğlu, ehtiyatda olan polkovnik Zahid Teymurov, qazi Əhliyət Mehdiyev, ictimaiyyət nümayəndələri və gənclər iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sabunçu Gənclər Evinin direktoru Rəvanə Həşimova qonaqları salamladı və tədbirdə iştirak etdiklərinə görə onlara dərin minnətdarlığını bildirdi. "Vətənpərvərlik hissi hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətən torpaqlarını qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir və inkişaf edir. Beləliklə, gənclər arasında Vətənə məhəbbət hissinin artırılmasına, dövlət rəmzlərinə sevgi və hörmət hisslərinin aşılanmasına, gənclərdə milli mənlik şüurunun formalaşmasına, hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinə, azərbaycançılıq məfkurəsinin bərqərar edilməsinə kömək göstərmək məqsədilə biz bu layihəyə start vermişik. İnanırıq ki, layihəyə qatılan iştirakçılarımız hərbi sirlərə və biliklərə dərindən yiyələnəcəklər".

Millət vəkili Fazil Mustafa bildirdi ki, gənclərimizdə hərbi vətənpərvərlik hissinin aşılanması istiqamətində hərbi təlimlərin keçirilməsi zəruri addımdır. "Bu gün gənclərimiz arasında vətənpərvərlik hissinin aşılanması istiqamətində təhsil müəssisələrində, o cümlədən də mətbuatda məqsədyönlü təbliğat aparılır. Bu istiqamətdə diqqətimizi artırmalı, televiziyalarda yayımlanan bəzi lazımsız şou-proqramların əvəzinə, vətənpərvərlik mövzusunda verilişlərin verilməsi daha məqsədyönlüdür. Müharibə şəraitində yaşayan, bir milyondan artıq qaçqın-köçkünü olan, eyni zamanda torpaqlarının 20 faizi işğal altında olan dövlətdə gənclərimizin vətənpərvər ruhda yetişməsi vacib şərtdir. Gənclərin vətənpərvər ruhda tərbiyəsi, onlarda Vətənə, millətə sevgi hissinin artırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərən və bu istiqamətdə çoxsaylı layihələr, irimiqyaslı hərbi təlimlər keçirilir. Bu da gənclərimiz arasında ruh yüksəkliyi yaradır".




"Legion" Hərbi Vətənpərvərlik Klubunun rəhbəri Abuzər Əbilov bildirdi ki, layihənin icrası iki ay müddətində nəzərdə tutulmuşdur. "Bu müddət ərzində layihəyə qatılan gənclərimiz hərbi hissələrdə olacaq, şəxsi heyətin sosial-məişət şəraiti ilə tanış olacaq, verilən əmr və tapşırıqların icrasını, ekstremal şəraitlərdə davranış və ilkin tibbi yardım göstərilməsi qaydalarını öyrənəcək, təhlükəsizlik qaydalarına riayət edərək silah və texnika ilə tanış olacaqlar. Təşkil olunan layihənin köməyi ilə müasir gənclərimizdə vətənpərvərlik keyfiyyətlərini formalaşdırır, onların hərb sahəsində biliklərini inkişaf etdiririk. Beləliklə, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız Vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilərlər. Azərbaycan gəncləri Vətən qarşısında öz vətəndaşlıq borclarını layiqincə başa düşür, onun qorunmasında və milli dövlətçilik quruculuğunda fəal iştirak edirlər. Torpaqlarımızın 20 faizinin işğal altında olduğu bir zamanda xalqımızın Vətəni qorumağa qadir, mərd, sadiq gənclərə böyük ehtiyacı var. Buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılmalıdır. Çıxışımı xalqımızın ümummilli lideri Heydər Əliyevin gənclər barəsində dediyi sözlərlə başa vurmaq istəyirəm: "Gəncləriniz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidirlər. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur, vətənpərvərlik".

Digər çıxış edənlər də gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasından, təşkil olunan layihənin mahiyyətindən söz açdılar.

Təqdimat mərasimi qısametrajlı filmin nümayişi ilə sona çatdı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xocavənd rayonunda Qaradağlı faciəsinin ildönümü qeyd edilib

*Azərbaycanın Xocavənd rayonunun Qaradağlı kəndinin Ermənistan tərəfindən işğal edilməsindən və kənd sakinlərinin soyqırımına məruz qalmasından 27 il ötür. Xocavənd rayonunda bu münasibətlə anım tədbiri keçirilib. Tədbirdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Dövlət Komitəsinin və yerli icra orqanlarının əməkdaşları, mətbuat və ictimaiyyət nümayəndələri iştirak ediblər.*



Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə Nərgiztəpədə ucaldılmış abidə kompleksi ziyarət edilib.

Faciənin ildönümü ilə əlaqədar keçirilən tədbirdə qeyd olunub ki, dörd il erməni işğalçılarına qarşı mübarizə aparan Qaradağlı kəndində Qarabağ müharibəsinin ən dəhşətli faciələrindən biri yaşanıb. Erməni quldurları 1992-ci il fevralın 17-də kəndi işğal edərək yandırıb, dinc əhaliyə qarşı soyqırımı həyata keçiriblər. Kəndin 91 sakini amansızcasına qətlə yetirilib, 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev çıxışında vurğulayıb ki, Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması, Ermənistanın yenidən ərazi iddiaları irəli sürməsi və işğal siyasəti aparması Azərbaycanın o vaxtkı rəhbərliyinin səriştəsizliyi və qətiyyətsizliyi ilə əlaqədar idi. “Təəssüf ki, həmin dövrdə respublikaya rəhbərlik edən şəxslər öz məsuliyyətini dərk edə, milli maraqlarımızı qoruya bilmirdilər. Yalnız ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda müstəqil dövlətçiliyin süqutunun qarşısı alındı, xalqın birliyi təmin olundu, erməni işğalçılarının yürüdülən qarşı güclü müqavimət təşkil edildi.”

Komitə sədri Ermənistanın işğalçılıq siyasətinin bütün dünyada ifşa edilməsi, ölkəmizin müdafiə sisteminin qurulması və möhkəmləndirilməsi, həmçinin işğal nəticəsində yurd-yuvasını itirmiş məcburi köçkünlərin problemlərinin həlli istiqamətində ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini və müsbət nəticələr verdiyini diqqətə çatdırıb. 2016-cı ilin aprel döyüşlərində qəhrəman ordumuzun işğalçılara öz gücünü göstərdiyi, torpaqlarımızın bir hissəsini azad etdiyi, ötən il isə Naxçıvanda keçirilən uğurlu hərbi əməliyyat nəticəsində bir sıra strateji yüksəkliklərə nəzarəti ələ aldığı qeyd olunub.

Prezident İlham Əliyevin qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində apardığı dövlət siyasətini daha da təkmilləşdirmək məqsədilə həyata keçirdiyi islahatlar, müharibədən ziyan çəkən insanların mənzil-məişət şəraitinin və maddi rifahının yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi istiqamətindəki genişmiqyaslı tədbirlər barədə də ətraflı söhbət açılıb. Birinci vitse-prezident Mehriban Əliyevanın məcburi köçkünlərin problemlərinə həssaslıqla yanaşdığı, ağır və həyat üçün təhlükəli şəraitdə yaşayan məcburi köçkünlərin ilk növbədə yeni ev və mənzillərə köçürülməsi ilə bağlı verdiyi tapşırığın icrasını daim nəzarətdə saxladığı bildirilib.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxışında qeyd edib ki, Qaradağlı faciəsinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə Azərbaycan dilində və xarici dillərdə "Soyqırımı: Qaradağlı", "Soyqırımı Qaradağlı: davam edir..." və "Qaradağlı, mübarizə" sənədli filmləri çəkilib. Ermənistan silahlı qüvvələrinin Qaradağlı kəndində törətdiyi soyqırımı ilə bağlı "Qaradağlı soyqırımı şahidlərin dili ilə" kitabı hazırlanıb. Bundan başqa, şəhidlərin xatirəsini əbədiləşdirmək üçün Yeni Qaradağlı, Yeni Xocavənd qəsəbələrində və Nərgiztəpə ərazisində abidə kompleksləri ucaldılıb. Rayonun sosial-iqtisadi inkişafı sahəsində əldə edilmiş uğurlar, məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı görülən işlər barədə də məlumat verilib.

Tədbirdə Xocavənd rayonundan olan ziyalılar, Qaradağlı sakinləri çıxış ediblər.

Sonda Qaradağlı faciəsinə həsr edilmiş film nümayiş olunub.

*Redaksiyamızın poçtundan*

# Vətəndaşa qayğı dövlət siyasətinin prioritet istiqamətidir

*Son vaxtlar sosial şəbəkələr istər-istəməz əyləncə məkanı, ünsiyyət forması, maraqlı axtarışlar meydanı olaraq həyatımıza sirayət edib.*

Eyni zamanda sosial şəbəkələr bəzi şəxslər üçün qisas meydanına, bir növ problemini paylaşma, ictimailəşdirmə adı altında dövlət orqanları və vəzifəli şəxslər barədə etikadan kənar ifadələrdən, təhqiramiz sözlərdən, qərəzli fikirlərdən istifadə edilən poliqona da çevrilib.

Sosial şəbəkələrdən və virtual məkandan az istifadə etsəm də keçmiş hərbçi kimi, imkan olduqca burada hərbi mövzuda olan paylaşımları izləyirəm. Son vaxtlar sosial şəbəkələrdə bir növ kampaniya şəklini alan anti-hərbi mövzulara fikirlərimi bildirmək və şəxsi mülahizələrimi qələmə almaq qərarına gəldim.

Vətən elə bir müqəddəs məfhumdur ki, dilimizdə səslənəndə köksümüz qabarır, qürurdan qəlbimizi fərəh hissi bürüyür. Düşünürəm ki, Ana Vətən, doğma torpaq üçün nəsə etdiyimizə görə onu borclu çıxarmaq qəbuledilməzdir. Məgər Mübariz İbrahimov, Çingiz Qurbanov kimi igid oğullar düşmənə qan uddurub, fədakarlıq göstərəndə Vətəndən nəsə qarşılıq gözləyirdilərmi? Xeyr, gözləmirdilər.

Amma nə yazıq ki, bəzən umanlar da, küsənlər də, Vətəni hər addımda borclu çıxarmağa çalışanlar da tapılır.

Son bir neçə ildə dövlət başçısının tapşırığına əsasən, hərbi qulluqçuların ailələrinə dövlət hesabına tam təmirli mənzillər paylanır. Müdafiə Nazirliyinin Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Naxçıvan və digər bölgələrimizdə inşa etdirdiyi xidməti evlər tam təmir olunaraq hərbçilərin istifadəsinə verilir. İstər dövlət, istərsə də Müdafiə Nazirliyinin rəhbərliyi səy göstərir ki, həm orduda xidmət edən, həm də ehtiyata buraxılan hərbi qulluqçular ardıcıl olaraq mənzillərlə təmin olunsunlar. Digər sosial məsələlərin həlli ilə də bağlı bir çox əhəmiyyətli addımlar da atılıb.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bütün çıxışlarında Vətən naminə canlarını fəda edən hər bir kəsin cəmiyyətimizdə böyük hörmətə malik olduğunu və bu insanlara qayğı göstərilməsinin dövlət siyasətimizin əsas istiqamətlərindən olduğunu bildirir. Bu yaxınlarda Prezident şəhid ailələrinin böyük bir qrupunu qəbul etdi, tribunadan şəhid valideynlərinin, şəhid yaxınlarının ayağına gəldi, hər birini hörmət və ehtiramla salamladı, səmimi söhbət etdi, qayğılarını dinlədi və problemlərinin həlli ilə bağlı müvafiq göstərişlər verdi. Bu mənzərəni görən vətənsevər hər kəsin qəlbində fərəh və qürur hissi yarandı. Hamının gözündə dövlət başçımızın insan, vətəndaş olaraq da nə qədər ucaldığının bir daha şahidi olduq. Həmin gün Azərbaycan naminə əməyi olan insanların sosial qayğılarının həllindən danışan cənab İlham Əliyev çıxışında bu il daha 800 şəhid ailəsinin mənzillərlə təmin olunacağını inamla qeyd etdi və bildirdi ki, Vətənimiz qarşısında xidmətləri olan hər kəsin zəhməti dəyərləndiriləcək.

Bütün şəhid ailələrinə, hərbi qulluqçulara evlər veriləcək, ehtiyatda olanların qayğıları ilə bağlı tədbirlər görüləcəkdir. Əgər kimsənin Vətən yolunda fədakarlığı, torpaqlarımızın işğaldan azad edilməsində, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda döyüşlərdə payı varsa, həmin şəxs istər hərbi xidmətdə olsun, istər istefada, istərsə də ehtiyatda, fərq qoyulmayacaq.

İkinci Dünya müharibəsindən 70 ildən çox vaxt keçməsinə baxmayaraq bu gün də elə hallar olur ki, döyüşçünün layiq görüldüyü orden, medal, mükafat öz ünvanını tapır. Veteranların, o cümlədən Qarabağ müharibəsi iştirakçılarının sosial qayğılarının həlli ilə bağlı elə bir il yoxdur ki, Ali Baş Komandan fərman və ya sərəncam imzalamasın.

Təəssüf ki, diqqətdən kənarda qaldığını iddia edən bəziləri, hətta ehtiyatda olan bəzi hərbi qulluqçular sosial şəbəkələrdə üzləşdikləri problemlərdən dolayı dövlət və ordu rəhbərliyinin ünvanına xoşagəlməz ifadələr işlətməkdən çəkinmirlər. Hesab edirəm ki, bəzi məsələlərin ictimailəşdirilməsi və sosial şəbəkələrdə təhqiramiz ifadələrin işlənməsi düzgün deyil. Bu addım problemin həllindən çox, ümumilikdə ölkəmizdə həyata keçirilən təqdirəlayiq işlərə kölgə salır, böyük zəhmətlər bahasına əldə etdiyimiz müsbət imicimizə xələl gətirilməsində bizi istəməyənlərə, bizə düşmən olanlara geniş imkan, fürsət yaradır. Çox vaxt düşmən qüvvələrin belə çıxışlardan ölkəmizə qarşı qurduqları xain oyunlarda ustalıqla istifadə etdiklərini də heç vaxt unutmayaq.

Ehtiyatda olan zabit olaraq heç vaxt belə mənfi düşüncələrin təsirinə düşərək Vətənimdən, ölkəmdən, dövlətimdən incimədim, Vətəni borclu çıxarmadım. Əksinə, Vətənə borcumu vicdanla ödəməyə çalışdım və bundan qürur duydum. Dövlətim tərəfindən də lazımi səviyyədə dəyərləndirildim. Bu məni bir vətəndaş kimi sevindirməyə bilməz.

Amma heç vaxt da unutmadım ki, mən sağam, salamatam, ailəmlə birlikdəyəm. Unutmadım ki, Vətən yolunda canından keçən, torpaq naminə özünü qurban verən, şəhidlik zirvəsinə ucalan, döyüşlərdə əlil olan igid Vətən oğulları var ki, onlar və onların ailə üzvləri məndən qat-qat daha üstün hörmətə, ehtirama, qayğıya və diqqətə layiqdirlər.

Vətən, torpaq, millət naminə vuruşmaq, döyüşmək hamımızın borcudur. Vətən yolunda canlarından keçənlər bu addımı nəyinsə xətrinə yox, Vətənin azadlığı naminə təmənnasız etdiklərini də unutmayaq. Odur ki, edilən yaxşı nə varsa gözardı edərək, rastlaşdığımız hansısa bir problemin həlli ilə bağlı Vətəni borclu çıxarmaq keçmiş döyüşçü mənəviyyatına, zabit kodeksinə, hərbçi etikasına yaraşmaz.

**Yunis ELDAROĞLU,**
**ehtiyatda olan zabit,**
**müharibə əlili**

# Şəxsi heyətin qidalanması da diqqət mərkəzindədir

*Azərbaycan Ordusunun bu gün dünyanın ən güclü orduları sırasında olması qürurvericidir. Şəxsi heyətin döyüş hazırlığı, fiziki və mənəvi-psixoloji hazırlıq səviyyəsi əsgərlərə yaradılan sosial-məişət şəraiti ilə də ölçülür. Bu gün ordumuzun şəxsi heyətinin döyüş ruhunun, onun sosial rifahının yüksək saxlanması üçün rəhbərlik xeyli işlər görür. Yeni tikilən hərbi hissələrdə şəxsi heyətin müasir səviyyədə sosial-məişət şəraiti ilə təmin olunmasına xüsusi diqqət yetirilir. Bir sözlə, şəxsi heyətin gündəlik fəaliyyətinin düzgün təşkili üçün hər şey düşünülüb.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və rəhbər heyətin ön xətdə yerləşən hərbi hissələrə səfəri, hərbi qulluqçular üçün yaradılan şəraitlə tanış olması, şəxsi heyətin qayğı və problemləri ilə maraqlanması ordumuzun döyüş gücünə müsbət təsir edən əsas amillərdəndir. Təbiidir ki, döyüş ruhu yüksək olan əsgər istənilən döyüşdə qalib olur. Əsgərin döyüş ruhunun yüksək olması üçün düzgün qidalanma da əsas şərtlərdəndir. Artıq bu gün Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşəbbüsü ilə qida rasionunda köklü dəyişikliklər edilib və əsgər qidalanının keyfiyyətinin yaxşılaşdırılması üçün xeyli işlər görülüb.

Ön xətdə yerləşən "N" hərbi hissəsində kapitan Rail Ağayevlə birgə şəxsi heyətin nahar yeməyində iştirak etdik.

Yeməkxana növbətçisi baş gizir Şəmsi Məhərrəmzadə günün menyusu və qida rasionu ilə bağlı bizi məlumatlandırdı. "Bugünkü nahar yeməyində düşbərə supu, vermişel süzməsi və kartof qızartması, eyni zamanda tərəvəz salatı (xiyar, pomidor və soğan), kampot və alma veriləcək. Əsgərlərin soyuq havaya qarşı immunitetini möhkəmləndirmək məqsədilə vitamin və sarımsaq da verilir. Yeməklərimizdə əsasən milli xörəklər üstünlük təşkil edir."

Yeməkxana rəisi baş gizir Anar Əhmədov yeməklərin saxlanma şəraiti və əsgər norması barədə məlumat verdi. "Ərzaqlar müasir soyuducu avadanlıqlar vasitəsilə müxtəlif kameralarda və müvafiq temperaturlarda qorunub saxlanılır. Gündəlik normaya əsasən yeməklər təcrübəli aşpazlarımız tərəfindən hazırlanır. Mətbəxdə çalışan personal aşpazlıq ixtisası üzrə lazımi göstəricilərə cavab verməlidir. Gigiyena qaydaları, yeməklərin hazırlanmasında istifadə olunan ərzaq və ədviyyatların miqdarına (bir əsgər üçün ərzaq payı norması əsas götürülərək) xüsusi önəm verilir."

Baş aşpaz Diləfruz Tahirova söhbət zamanı bildirdi ki, xörəklər ana qayğısı ilə hazırlanır. "Əsgərlərimiz bizim Vətən müdafiəçilərimizdir. Onları düzgün qida ilə təmin etmək biz aşpazların vəzifə borcudur. Vətən müdafiəçilərini yüksək kaloriyə malik qida ilə təmin etmək lazımdır ki, onlar xidməti çevik, ayıq-sayıq təşkil etsinlər."



Yeməkxananın digər personalları aşpazlar Rəna Qurbanova, Nazbənd Hüseynova, yeməkxana xidmətçisi Zöhrə Həsənova mətbəxdə yeməklərin hazırlanmasında istifadə olunan müasir məişət avadanlıqlarının əsgərlərin keyfiyyətli qida ilə təmin olunmasında çox böyük rolu olduğunu vurğuladılar və Vətən müdafiəçilərinə qulluq etməkdən qürur duyduqlarını söylədilər.

Nahar yeməyini bitirdikdən sonra bir neçə əsgərdən xörəklərin keyfiyyəti ilə bağlı fikirlərini öyrənirik. Əsgər İsmayıl Məmmədli bildirdi ki, yeməklərimizin şahı sayılan plovun vurğunudur. "Bizim üçün nəzərdə tutulan qida rasionu çox zəngindir. Milli mətbəximizin gözəl təamları ilə qidalanırıq. Cənub zonasından olduğum üçün düyü yeməklərinə xüsusi sevgim var. Düyü yeməklərinin menyumuzda özünəməxsus yeri var. Yediyimiz yeməklərdə ana sevgisi hiss olunur. Buradakı xörəklər, demək olar ki, evdə bişirilən yeməklərdən fərqlənmir".

Əsgərlər Toğrul Nəcəfov, Amin Əsgərov da verilən yeməklərdən çox razıdırlar. "Yeməklərin dadına söz ola bilməz. Aşpaz analarımız sanki öz övladları üçün yemək hazırlayırlar. Xidmət etdiyimiz hərbi hissədə heç nədən korluq çəkmirik. Burada yaradılan şərait bizi nümunəvi xidmət etməyə ruhlandırır".

Ön xətdə yerləşən hərbi hissənin yeməkxanasında şəxsi heyət üçün yaradılan şərait onu deməyə əsas verir ki, Azərbaycan Ordusunda şəxsi heyətin qidalanması daim nəzarətdə saxlanılır.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**



# Boksçumuz Azərbaycan birinciliyinin qalibi olub

Gənc boksçular arasında keçirilən Azərbaycan birinciliyi başa çatıb. Bakı və respublikanın müxtəlif bölgələrini təmsil edən 35 komandanın qatıldığı yarışda 150-yə yaxın idmançı mükafat uğrunda mübarizə aparıb.

5 gün davam edən birincilikdə 10 çəki dərəcəsində çempion və medalçılar bəlli olub. Boks Mərkəzində təşkil edilən yarışda MOİK idmançıları da fərqləniblər. Belə ki, 91 kq çəki dərəcəsində yarışan Adil Vəliyev bütün rəqiblərini üstələyərək çempion adına sahib çıxıb. 81 kq çəkidə yarışan boksçumuz Həsən Osmanlı isə yalnız finalda uduzmaqla gümüş medalçı olub.

**Elvin YAQUBOV**

# "Asudə vaxtımız maraqlı keçir"

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsindəyik. Döyüş növbətçiliyi aparan Vətən övladlarının görüşünə gəlmişik. Mayor Orxan Nəsirov şəxsi heyət üçün yaradılan sosial-məişət şəraitindən danışdı. Zabit bildirdi ki, əsgərlərimizin döyüş növbətçiliyindən sonra vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. "Döyüş mövqeyində olan əsgərlərimiz yuxarı komandanlığın daima diqqət mərkəzindədirlər. Əsgərlərimiz dadlı və keyfiyyətli təamlarla qidalanır, mütəmadi olaraq təmiz yataq dəstləri ilə təmin olunurlar. Havaların soyuq keçməsini nəzərə alaraq tez-tez həkim müayinəsindən keçirlər. Vaxtında hər hansı bir xəstəliyi aşkarlamaq, onun yayılmasının qarşını almaq həkimlərin ən başlıca vəzifələrindən biridir. Şəxsi heyətin asudə vaxtlarının səmərəli keçməsi də vacib məsələlərdəndir. Biz zabitlər çalışmalıyıq ki, əsgərlərimiz həm istirahət etsinlər, həm də hər hansı bir biliyə yiyələnsinlər. Bunun üçün bütün bölmələrin dayaq mərkəzlərində, həmçinin mövqelərdə kitab rəfləri, televizor, radio, dama və şahmatlar vardır".

Zabitlə birgə mövqeyə çatırıq. İstirahət üçün ayrılmış otaqda Vətənin keşiyini çəkən oğullarımızın şahmat oynadıqlarının şahidi oluruq. Oyun başa çatdıqdan sonra söhbətə başlayan əsgər Layiq Hüseynov artıq xidmətini başa vurmağına az qaldığını bildirdi. "Hərbi xidmətdə keçən hər gün yaddaşıma əbədi həkk olunub. Həmin günlərdən ən yadda qalanı Vətənimizə layiqli övlad olacağıma, onun mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacağıma and içdiyim gündü. Çox sevincli, həm də həyəcanlı idim. Çünki üzərimə çox ciddi məsuliyyət düşmüşdü. Vətən torpaqları mənə əmanət idi. Bunun üçün əlimdən gələni əsirgəməməliydim. Artıq xidmətimin böyük hissəsini



geridə qoymuşam. Ancaq vaxtın necə keçdiyini hiss etmədim, çünki hər günümüz səmərəli və maraqlı keçirdi. Asudə vaxtlarımızda müxtəlif radio verilişləri dinləyir, kitab və qəzet oxuyuruq. Xidmətə yeni başlayan qardaşlarıma nizam-intizamlı, cəsur, mərd olmalarını komandirlərin öyrətdiklərini dərindən mənimsəmələrini, ən əsası döyüş mövqeyində təhlükəsizlik qaydalarına ciddi riayət etmələrini tövsiyə edirəm".

- Asudə vaxtlarımız çox maraqlı keçir. Mütəmadi olaraq əsgər yoldaşlarımızla şahmat, dama üzrə yarışlar keçiririk, - deyə əsgər Kərim Ağamirzəyev söhbətimizə qoşuldu. - Stolüstü oyunda gah qalib gəlirsən, gah da uduzursan. Ancaq bizim üçün oyunda deyil, düşmən üzərində qalib gəlmək önəmlidir. Əslən Ağdam rayonunun Xıdırlı kəndindənəm. Doğma kəndimiz işğal altındadır. Mülkidə olanda həmişə televiziya, internet vasitəsiylə ata-baba yurdumuza baxardım. Tarix kitablarından da Ağdamın zənginliyi, insanlarının cəsurluğu haqqında çox oxumuşam. Yenidən o torpaqlara qayıdacağımız günün həsrətindəyəm. Əminəm ki, tezliklə torpaqlarımızı işğaldan azad edib xalqımıza Böyük Qələbəni bəxş edəcəyik. Bunun üçün də xidmətimizi düzgün təşkil edir, hərbi bilik və vərdişlərə dərindən yiyələnirik. Döyüş meydanında aprel qələbəsini təkrarlamaq üçün Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazırıq!

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# MOİK zirvəyə qayıtdı

*Futbol üzrə Azərbaycan çempionatının I divizionunda ikinci dövrəyə start verilib. Artıq ikinci dövrənin iki turu arxada qalıb. İlk dövrənin böyük hissəsində lider olan və yalnız son 3 turdakı "büdrəmələr" nəticəsində zirvədən düşən MOİK artıq liderliyi geri qaytarıb.*



"Hərbçilər" XIV tur çərçivəsində "Kəpəz"in qonağı olub. Gəncə səfərində komanda ilin ilk rəsmi oyununa çıxıb. Raul Yaqubzadənin het-trik etdiyi görüşdə 3:0 hesablı darmadağınla qalib gələn MOİK-ə sonradan bu oyuna görə texniki qələbə verilib. Buna səbəb rəqibin adı protokolda qeyd olunmayan futbolçunu meydana buraxması olub. AFFA İntizam Komitəsinin qərarı ilə "Kəpəz" klubuna texniki məğlubiyyət verilib, hesab olduğu kimi - 0:3 saxlanılıb.

XV turda isə MOİK "Turan Tovuz" ilə qarşılaşıb. Lökbatan Olimpiya İdman Kompleksinin stadionunda keçirilən oyunda "hərbçilər" növbəti inamlı qələbəsini qazanıb. İlqar Ələkbərov, Ümid Şükürlü və Bahadur Həziyevin qolları ordu klubuna yenə 3:0 hesablı qələbə qazandırıb.

Komandamız liderin xal itkisindən istifadə edərək turnir cədvəlinin zirvəsinə qalxıb. Hazırda Azər Bağırovun yetirmələrinin ehtiyatında 35 xal var.

Klubun baş məşqçisi Azər Bağırov müsahibəsində bildirib ki, əsas məqsədləri turniri qalib başa vuraraq güclülər liqasına yüksəlməkdir. "Biz hər oyuna final oyunu kimi baxır, qələbə qazanmaq üçün meydana çıxırıq. Bir sözlə, çempionluğa iddialıyıq. Birinci dövrəni ikinci pillədə başa vursaq da, ruhdan düşmədik. Əzmkarlıqla təlim məşqlərimizi davam etdirdik, komanda şəklində nöqsanları aradan qaldırdıq. İkinci turda keçirilən hər iki oyunda inamlı qələbə qazandıq. Məşqlər zamanı çəkdiyimiz zəhmətin bəhrəsini yaşıl meydanlarda gördük. Komandanın hər bir üzvündən razıyam. İstər məşqlərdə, istərsə də oyun zamanı hər biri əlindən gələnin ən yaxşısını edir. Meydanda sona qədər mübarizə aparırlar. Qələbə qazanmaq üçün mübarizlik əsas şərtdir. Futbolçuların da hər biri yaxşı anlayır ki, sehirli ayaqlara sahib olmaqla yanaşı, dözümlü, cəld və iradəli olmalı, sona qədər mübarizə aparmalıdır. Bunun üçün də komandanın hər bir üzvü öz üzərində daima çalışır, futbol bacarıqları ilə yanaşı fiziki güclərini də artırırlar. Ürəkdən inanıram ki, turnirin sonunda qalib olacaq, güclülər liqasına vəsiqə qazanacağıq".

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Macarıstan "MiQ-29" təyyarələrini satışa çıxarıb



Macarıstan Hərbi Hava Qüvvələrinin arsenalında olan bütün "MiQ-29" təyyarələrini satışa çıxarıb.

Hərraca 19 təyyarə çıxarılıb. Onların bəziləri komplektləşdirilməyib. Həmçinin 20 mühərrik və digər əşyalar da satışa çıxarılıb. Hərrac üçün başlanğıc qiymət 10 milyon dollar müəyyən edilib. Modifikasiyasından asılı olaraq bir yeni "MiQ-29" təyyarəsinin qiyməti 25 milyon dollar müəyyənləşdirilib.

### İranın Kosmik Araşdırmalar İnstitutunda baş verən yanğın nəticəsində üç nəfər həlak olub



İranın Kosmik Araşdırmalar İnstitutunda baş verən yanğın nəticəsində üç nəfər həlak olub.

Bu barədə açıqlama verən İranın rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri yanğının təsadüfən baş vermədiyini nəzərə çatdırıb. O bildirib ki, bu institutun fəaliyyəti ABŞ və bəzi region dövlətlərini narahat edirdi. Onlar İranın kosmik tədqiqatlar aparmasının əleyhinə çıxaraq müxtəlif təhdidlər səsləndirirdilər. Odur ki, yanğın təsadüfi xarakter daşımır.

Nazir deyib ki, araşdırma aparılsa da, hələlik yanğının səbəbini müəyyənləşdirmək mümkün olmayıb. Buna baxmayaraq, təhqiqatlar davam etdirilir.

Xatırladaq ki, bu institut İranın raket proqramında aparıcı rola malikdir.

### Livanda İŞİD qruplaşmasının 6 komandiri həbs olunub



Livan ordusunun xüsusi xidmət orqanları İŞİD qruplaşmasında yüksək vəzifə tutan 6 təhlükəli terrorçunu həbs edib.

An-Nashra portalının yaydığı məlumata görə, Livanın şimalında yerləşən Hermel rayonunda aparılan əməliyyat zamanı sərhədi qanunsuz keçən İŞİD qruplaşmasının səhra komandirlərindən biri Xalid əl-Həc saxlanılıb. Onun dindirilməsindən sonra Əş-Şavahir rayonunda qruplaşmanın dini avtoriteti Əhməd Mansur əl-Xələf və daha 4 silahlı da həbs edilib. Onların hazırda döyüşlərin getdiyi Suriyanın Deyr-əz-Zor əyalətindən qaçdıqları bildirilir.

Fevral ayının əvvəlində Beyrutdan 90 kilometr məsafədə yerləşən Tripoli yaşayış məntəqəsində İŞİD qruplaşmasının şəbəkəsi ləğv edilmiş və diversiyaya hazırlaşan 4 silahlı saxlanılmışdı.

Livanın Daxili İşlər Nazirliyinin məlumatına əsasən, ötən il xüsusi xidmət orqanları parlament seçkiləri ərəfəsində iki böyük terror aktının qarşısını almışdı. O zaman qruplaşmaya bağlı terrorçular Suriyadan Livana daxil olmağa cəhd edən zaman apardıqları partlayıcı ilə birlikdə ələ keçmişdilər.

### ABŞ müttəfiqlərinin rəqib ölkələrdən silah almasına kəskin etirazını bildirib



ABŞ öz müttəfiqlərinin potensial düşmənlərdən silah almasına kəskin etirazını bildirib.

Bunu ABŞ-ın vitse-prezidenti Maykl Pens fevralın 16-da Təhlükəsizlik üzrə Münxen Konfransında bəyan edib.

"Biz müttəfiqlərimizin rəqiblərimizdən silah almasını kənardan izləməyəcəyik. Əgər müttəfiqlərimiz Şərqdən asılı olsa, biz Qərbdə sülhə təminat verə bilmərik", - deyə Maykl Pens bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Əsgərlərimizin keşiyində dayanırıq!

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində müasir tələblərə cavab verən, tamamilə avtomatlaşdırılmış sistemdə fəaliyyət göstərən camaşırxana ilə tanış olduq. Camaşırxananın ən son avadanlıqlar ilə təmin olunması, qadın operatorların səliqəli geyim forması və ətrafdakı təmizlik göz oxşadı.



Cəmilə Məmmədova bildirdi ki, şəxsi heyətin yataq dəstləri və geyimləri bölmələrdən təhvil alınır və paltaryuyan maşınlarda yuyulur. Camaşırxana işçiləri tərəfindən ütülənir, çeşidlənir və səliqə ilə anbara yığılır. Sonda anbardan bölmələrə təhvil verilir. "Hərbi hissəmizdə camaşırxananın olması bir çox üstünlüklər əldə etməyə imkan verir. Müasir standartlara cavab verən irihəcmli paltaryuyan maşınların texnoloji prosesi üç mərhələdə aparılır: yuma, qurutma, ütüləmə. Camaşırxanamız isə yuxarı komandanlığın diqqət və qayğısı nəticəsində bütün üç mərhələ üçün müxtəlif növ avadanlıqlarla təmin edilib. Təmizlənməyə gətirilən ləvazimatlar çeşidlərinə görə seçilir və ayrılır. Yüksək keyfiyyətli və təkmilləşdirilmiş ən son yuyucu məhsullardan istifadə edərək müxtəlif çirklənmələri müasir aparatlar vasitəsilə tez bir zamanda təmizləyirik. Keyfiyyətli yuyucu vasitələrdən istifadə edilməsi camaşırların parıltılı və maksimum müddətə təravətli qalmasına imkan verir. Yuyulub qurudulduqdan sonra ütüləmə prosesi də xüsusi masada həyata keçirilir. Bütün camaşırlar yüksək səviyyədə ütüləndikdən sonra qablaşdırılıb müvəqqəti saxlanca göndərilir. Hər həftənin şənbə günü isə şəxsi heyətin istifadəsinə verilir". Söhbət zamanı öyrəndim ki, Cəmilənin atası Qarabağ döyüşlərinin iştirakçısı olub.

Leyla Tağıyeva qeyd etdi ki, ən müasir paltar yuma, qurutma və ütüləmə avadanlıqları ilə təchiz edilmiş camaşırxana əsgərlərimizin geyim formalarının hər zaman səliqəli, təmiz və təravətli saxlanılmasını təmin edir. "Əsgərlərimizi təmiz və ütülənmiş yataq dəstləri, səliqə-sahmanlı geyimlə təmin etmək üçün çalışırıq. Bu işin öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edirik. Bunun üçün də camaşırxanamız yeni avadanlıqlarla təmin edilib. Bu da camaşırların tez zamanda tərtəmiz yuyulub əsgərlərə təhvil verilməsinə zəmin yaradır. Onlara xidmət etmək şərəfdir. Azərbaycan əsgərinin sayəsində evlərimizdə işıqlar yanır, toy-



bayram səsləri gəlir. Vətənin keşiyində duran övladlarımıza xidmət etməkdən qürur duyuram".

Xanımlarla sağollaşıb, onlara işlərində uğurlar arzulayıb yolumuza davam etdik. Əsgər camaşırxanasında operator xanımların işlərinə məsuliyyətlə yanaşmaları, şəxsi heyətə göstərilən diqqət, qayğı və nəvazişlə yaxından tanış olaraq, bir daha əmin olduq ki, əsgərlərimizin sosial-məişət şəraiti olduqca yüksək səviyyədədir. Bu da şəxsi heyətin mənəvi-psixoloji hazırlığını və döyüş ruhunu artırmağa kömək edən başlıca amillərdəndir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Tank əleyhinə SPQ-9 qumbaraatanı



SPQ-9 "Kopye" (hərbi jarqonunda "Sapoq" da adlandırılıb) sovet dəzgah qumbaraatanı düşmənin zireli texnikasını, onun özüyeriyən artilleriya qurğularını, zirehli texnikalarını, həmçinin açıq və gizli sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək üçün təyin edilib. Bu qumbaraatan motoatıcı bölmələr və desant-paraşüt hissələri üçün ən güclü atəş vasitəsi sayılır. Onun hazırlanması QKSB-47 (hazırda bu "Bazalt" elmi sənaye müəssisəsidir) konstruktor qrupu tərəfindən həyata keçirilib. SPQ-9 dəzgah qumbaraatanı 1963-cü ildə silahlanmaya qəbul edilib və indiyə qədər də rus ordusunun silahlanmasındadır. Bir çox ölkələrdə də istehsalı həyata keçirilib. Bu silahın sadə və etibarlı, keyfiyyətli olduğu dəfələrlə təsdiq olunub. İstismarı dövründə qumbaraatanın bir çox modifikasiyaları da hazırlanıb. Qumbaraatan silahlanmaya qəbul edildikdən sonra onda ancaq bir PQ-9V sursatından istifadə edilib. Sonradan qumbaraatanın baza modeli əsasında SPQ-9D modifikasiyası yaradılıb. Silahın atış tərkibinə qumbara (kumulyativ və ya qəlpə-fuqas) və barıt təchizatı daxildir. Qumbaraatan üçayaqlı dayaqdan (desant variantında təkərli), nişangah və atəşi yerinə yetirmək üçün mexanizmdən ibarətdir. Heyəti dörd nəfərdir: təchizatçı, daşıyıcı, tuşlayıcı və top komandiri. Qumbaraatanın SPQ-9D, SPQ-9M, SPQ-9DM, PQN-9 kimi modifikasiyaları da mövcuddur. SPQ-9 dəzgah qumbaraatanının taktiki-texniki xüsusiyyətlərinə gəldikdə isə onun kalibri 73 mm, ümumu çəkisi 49,5 kq, uzunluğu 2110 mm, eni 1055 mm, hündürlüyü 820 mm, atəş xəttinin hündürlüyü 390-700 mm, nişangah uzaqlığı 1300 metr, atəş uzaqlığı isə 800 metrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində havaların soyuması ilə bağlı əsgərlər arasında xəstəliklərin artması kütləvi hal alıb.

Altıncı dağatıcı alayın 11 nəfər gənc əsgəri tibb məntəqəsində pnevmoniyadan müalicə alır. Hərbi hissənin əsgəri Andranik Tiqranyan isə ağır vəziyyətdə Ağdərə hərbi hospitalının reanimasiya şöbəsinə yerləşdirilib.

İş o həddə çatıb ki, hərbi qulluqçular arasında xəstəliyin kəskin artması səbəbindən gənc əsgərlər üçün planlaşdırılan andiçmə mərasimi belə təxirə salınıb.

Komandanlıq təcili tədbirlər görülməsi ilə bağlı Yerevana yazılı məlumat göndərsə də, hələlik, heç bir yardımın göstərilmədiyi bildirilir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində əsgərlərdən pul yığdığına görə cinayət məsuliyyətinə cəlb edilən zabitlərin sayı artıb.

Əsgər valideynlərinin sosial şəbəkədə paylaşdığı müraciət əsasında üçüncü dağ atıcı alayın zabiti, yeddinci bölüyün komandiri İşxani Gevorkyanın əsgərlərdən pul yığması faktı ilə bağlı hərbi polis tərəfindən araşdırma aparılır. Zabit ilkin izahatında pulu komandanlığın verdiyi qanunsuz tapşırıqları həll etmək üçün yığdığını bildirib.

Faktla bağlı daha 2 zabitin və bir müqaviləli hərbçinin istintaqa cəlb edildiyi də məlum olub.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# İdman

## Cüdoçumuz Avropa kubokunda qızıl medal qazanıb



Fevralın 16-da Romada start götürən açıq Avropa kubokunun birinci günündə Azərbaycanın dörd cüdoçusu mübarizəyə qoşulub.

Onlardan Oruc Vəlizadə (60 kq) uğurla çıxış edib. İdmançımız rusiyalı Həmzət Zairbəyov, fransalı Vinsent Anquest, qazaxıstanlı Bairjan Zauntayev və fransalı Siven Qulen üzərində qələbə qazanaraq finala yüksəlib. Həlledici görüşdə Dauren Syukennovu (Qazaxıstan) məğlub edən cüdoçumuz qızıl medal qazanıb.

## Rafael Ağayev Dubay Premyer Liqa turnirində bürünc medal qazanıb



Karateçilərimiz Dubayda mövsümün ikinci Premyer Liqa turnirində mübarizəni davam etdirirlər.

19 idmançımızın mübarizə apardığı turnirdə Rafael Ağayev (75 kq) üçüncü yer uğrunda görüşdə fransalı Loqan da Kostanı məğlub edərək (3:0) bürünc medala sahib olub.

Təmsilçimiz İrina Zaretska (68 kq) isə bütün qarşılaşmalarda qələbə qazanaraq finala yüksəlib.

## Azərbaycanın taekvondo üzrə komandası Türkiyədə keçirilən beynəlxalq turnirdə aktivinə 6 medal yazdırıb



Azərbaycanın böyüklərdən ibarət taekvondo üzrə yığma komandası Antalya şəhərində keçirilən "Turkish Open" beynəlxalq turnirində uğurla çıxış edib.

Türkiyədəki yarışda 14-ü kişi və 6-sı qadın olmaqla, ümumilikdə 20 taekvondoçu ilə təmsil olunan komandamızın altı üzvü medal qazanıb.

Səksən kiloqram çəki dərəcəsində kişilərin yarışında mübarizə aparan taekvondoçumuz Milad Beigi Hərçəqani və 53 kiloqram çəki dərəcəsində çıxış edən qadın idmançımız Patimat Abakarova rəqiblərinə qalib gələrək yarışda fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Radik İsayev (87 kq-dan yuxarı) və Qaşım Maqomedov (58 kq) yalnız finalda məğlub olaraq gümüş medala sahib olublar. Digər təmsilçimiz Məhəmməd Məmmədov (68 kq) və Ramin Əzizov (87 kq) isə yarışı yarımfinal mərhələsində başa vuraraq bürünc medalla kifayətləniblər.

Beləliklə, 51 ölkədən 1615 idmançının qatıldığı, sayca 6-cı olan G1 kateqoriyalı turnirdə millimiz aktivinə 2 qızıl, 2 gümüş və 2 bürünc medal əlavə edib.

## Azərbaycanlı atlet Balkan oyunlarında ikinci olub




Fevralın 16-da azərbaycanlı atletlər İstanbulda keçirilən XXIV qapalı məkanlarda Balkan oyunları beynəlxalq turnirində iştirak ediblər.

Azərbaycan Atletika Federasiyasının nümayəndəsi Ceyhun Hüseynov bildirib ki, azərbaycanlı atletlərdən Nazim Babayev yarışda üç təkanla tullanma növü üzrə gümüş medal qazanıb. Digər qız atletimiz Zəkiyyə Həsənova isə 60 metr məsafəyə qaçışda 7.37 saniyə ilə Azərbaycan rekordu vurub.

Qeyd edək ki, beynəlxalq turnirdə Əməkdar məşqçi Ceyhun Hüseynov və Ziyad Xəlfəliyevin rəhbərliyi altında Nazim Babayev, Teymur Salamlı, Yadulla İbrahimov, Səid Nəcəfzadə, Fəxriyyə Tağızadə, Zəkiyə Həsənova, Lamiyə Vəliyeva və Yelana Pextireva mübarizə aparıblar.

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Mahmud MÖHBALIYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 146 Nüsxə 3950 |